**DOI: https://doi.org/10.59849/2957-3882.2023.2.133**
**UOT: 341**

# AZƏRBAYCAN YUNESKO ƏLAQƏLƏRİ: DÜNƏN, BU GÜN, SABAH

**Sevda İBRAHİMOVA***

***Açar sözlər:*** *YUNESCO, Birləşmiş MİllətlƏr təşkilatı, tarixi və mədəni irs, Haaqa konvensiyası*

## XÜLASƏ

BMT çərçivəsində fəaliyyət göstərən UNESCO elm, mədəniyyət, təhsil, uşaq və insan hüquqları, ekologiya və sağlamlıq məsələlərini müasir dövrün mühüm problemlərindən hesab edir. Hazırda Azərbaycan Respublikası ilə YUNESKO arasında sıx əməkdaşlıq mövcuddur. Təşkilatın fəaliyyəti çərçivəsində Azərbaycan müxtəlif ölkələrdə təhsil, ekologiya, mədəni-tarixi irsin qorunması istiqamətində əməli işlər həyata keçirib. Uzun illər Azərbaycanın birinci xanımı Mehriban Əliyeva YUNESKO-nun xoşməramlı səfiridir. Ölkəmiz 2021-2025-ci illər ərzində YUNESKO-nun İcraiyyə Şurasının üzvlərindən birinə çevrilə bilmişdir.

Məlumdur ki, 30 ildən artıqdır ki, Azərbaycan torpaqlarının 20 faizi Ermənistanın işğalı altında qalıb. Bu illər ərzində bir milyondan çox qaçqın və on minlərlə dinc sakin vəhşicəsinə qətlə yetirilib, erməni təcavüzünün qurbanı olub. Təəssüf ki, üç onillik ərzində dünya birliyi Ermənistana qarşı heç bir təzyiq vasitəsindən səmərəli istifadə edə bilməyib. Bu illər ərzində Ermənistanın işğalı altında olan Qarabağ torpaqlarında tarix və mədəniyyət abidələrinin 95 faizi dağıdılıb. Bu baxımdan Azərbaycan ilə YUNESKO arasında sıx əlaqələr ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edir.

### Giriş

XX əsrin birinci yarısı dünya xalqları üçün faciəvi hadisələrlə yadda qalmışdır. Dağıdıcı inqilablar, iki böyük dünya müharibəsi bəşəriyyətin varlığını təhlükə altına almışdır. Müharibələr təkcə insanların deyil, bütöv ölkələrin həyatına faciə və bədbəxtlik gətirmişdir. Eyni zamanda bəşəriyyətin minilliklərlə yaratdığı maddi və mədəni nailiyyətin sonrakı nəsillərə ötürülməsi təhlükəsinin nə qədər yaxın olduğunu da göstərmişdir. Bu baxımdan, İkinci Dünya müharibəsindən sonra insanların müharibə təhlükəsinin aradan qaldırılması, gizli danışıqlardan intina, kütləvi qırğın silahlarının azaldılması, xalqlar arasında dialoqun artırılması, insan və vətəndaş hüquqları ilə yanaşı təbiətin, mədəni və tarixi irsin qorunması məsələsinin də aktual olduğu vuğulanmışdır.

Hələ1945 -ci ildə Birləşmiş MİllƏtlər təşkilatı yaradılarkən dünya ictiamiyyəti bəşəriyyətin sonrakı taleyinə müsbət təsir göstərən hər bir şeyi bu təşkilatın diqqət mərkəzinə çevrilməyə çalışmışlar. Dünyada sülhlə bərabər elm, mədəniyyət, təhsilin nə qədər vacib olduğunu aşılamağa çalışmışlar. Məhz buna görə də BMT-nin nəzdində elm, mədəniyyət, təhsil, uşaq və insan hüquqlarını vacib məsələyə çevirən YUNESKO yaradılmışdı.

Əslində bu cür təşkilata zərurət zamanın tələbi idi, belə ki, hədəfi və məqsədləri yalnız nüfuz və maddi ehtiyatların mənimsənilməsinə yönəlmiş siyasi maraqların toqquşması ilməhv edilən tarixi-mədəni dəyərlərin bərpası illərin zəhməti bahasına başa gəlirdi, əksər hallarda isə mümkün olmurdu. Bu baxımdan mədəni dəyərlərin qurunub saxlanılması insanın varlığı qədər aktual bir məsələ idi. Bu baxımdan, dünya müharibəsi bütün insanları narahat edən problemlərin həllinə birgə səylərlə yanaşmanın vacibliyini göstərə bildi.

* *AMEA akad. Z.M.Bunyadov adına Şərqşünaslıq İnstitutu.*
*E-mail: sevda2303@mail.ru*

**1. Tarixi və mədəni irsin qorunması zərurəti, YUNESKO və Azərbaycan**

Ümumiyyətlə, müxtəlif dillərə və adətlərinə baxmayaraq bəşəri mədəniyyət universal olduğu qədər də unikaldır. Hər bir xalqın, etnik qrupun və ayrıca bir isanın yaradıcılığı yer üzünün bütün insanlarına xidmət edir. Onun qorunması maddi məsələ deyil, ölçüyəqəlməz bir mənəvi dəyərdir. Bu baxımdan, qarşısına dünyanın maddi və tarixi irsin qorunması məqsədini qoymuş YUNESKO- kimi təşkilatın yaradılmasının böyük əhəmiyyət kəsb etməyə bilməzdi.

Beləliklə, BMT-nin bir hissəsi kimi yaradılan YUNESKO- nunu fəaliyyətə başlamasından dərhal sonra maddi və qeyri maddi mədəni irsin qorunması istiqamətində konsepsiyalar hazırlanmağa başlandı. Bu konsepsiyalar təşkilatın sənədlərində, həmçinin təsisçi dövlətlərin hüquqi sistemində öz əksini tapmalı, dünya mədəni irsinə beynəlxalq təhlükəsizlik prizmasından yanaılşma prioritet məsələ kimi dayanmalı idi (1). Bu baxımdan, təşkilat illərlə qəbul etdiyi sənədlərlə həmin məsələni təşkilatın siyasi motivinə çevirə bilmişdir.

Belə bir sənədlərdən biri BMT Təhlükəsizlik Şurasının 2015 və 2017-ci illərdə qəbul olunmuş qətnamələri ilə silahlı münaqişələr zamanı dünya mədəni irsinin müdafiəsi tərəflər üçün mühüm tələbi olmuşdur.

Hələ1954-cü ildə qəbul olunmuş Haaqa konvensiyası silahlı münaqişə zamanı mədəni irsin müdafiəsi haqqında qəbul edilmiş ilk beynəlxalq razılaşma sənədi olmuşdu. Bu sənəd dünya xalqlarının mədəni dəyərlərinin müdafiəsinə və bu məzmunda olan digər sənədlərin qəbul olunmasına böyük töhvə vermiş oldu. 1972-ci ildə isə təşkilat dünyanın mədəni və təbii irsini müəyyənləşdirən daha mühüm sənədini qəbul etdi (2).

Tarixə Haaqa konvensiyasının "ikinci protokolu" kimi düşmüş 1999-cu il sənədi qəbul edilmiş prinsiplərin "Gücləndirilmiş müdafiəsi" kimi dəyərləndirilirdi(3,103). İkinci protokolu imzalayan tərəflər üçün silahlı münaqişə zamanı komitə tərəfindən maddi mədəni irsin müdafiəsi üçün üç şərt ortaya qoyulmuşdur. Sənədə görəqorunan obyekt ilk növbədə bəşəri dəyərlərə malik olmalıdır, ikincisi obyekt öz tarixi və mədəni unikallığına ölkənin ən yüksək daxili qanun və hüquqi qaydaları ilə müdafiə olunmalı, nəhayət, abidənin hərbi məqsədlərlə və hərbi obyektlərin müdafiəsi məqsədilə istifadəsinə qadağan qoyulmaqla yanaşı bu haqda ayrıca bəyanat verilməlidir (2).

Konvensiyanınİkinci protokolu silahlı münaqişələr zamanı toqquşma zonasında mədəni dəyərlərin qorunması və onun reallaşdırılması istiqamətində daha səmərəli və aydın mexanizmlərin yaradılmasına xidmət etmişdir (4). Təsadüfi deyil ki, YUNESKO-nun 65 üzvü İkinci protokolu daha yüksək qiymətləndirərək onun iştirakçısı olmağa razılıq vermiş və sənədi qəbul etməklə yanaşı digər üzvlərin də protokolu lazımı şəkildə dəyərləndirməyə çalışmışlar.

Bu gün müharibələrin belə kəskin xarakter daşıdığı dövrümüzdə tarixi və mədəni abidələrin qorunması daha aktual səslənir. Belə ki, terror təhlükələri, müxtəlif səpkidə baş verən arzuolunmaz münaqişələr YUNESKO-nun bu istiqamətdə atdığı addımların ümumdünya mədəni irsinin qorunması və xilas olunması kimi yüksək mənəvi məqsədlərə xidmət etdiyinin bariz nümunəsidir.

Hal-hazırda Azərbaycan Respublikası ilə YUNESKO-arasında yaxın əməkdaşlıq mövcuddur. Təşkilatın fəaliyyəti çərçivəsində Azərbaycan müxtəlif ölkələrdə təhsil, ekologiya, mədəni və tarixi irsin qorunması istiqamətində əməli işlər görmüşdür(5). Azərbaycan təşkilatın 13-dən çox konvensiyalarına qoşulmaqla fəaliyyətini daha da genişləndirməkdədir (6). Onların arasında Silahlı münaqişə zamanı mədəni dəyərlərin qorunması haqqında Birinci və İkinci protokollar, Ümumdünya mədəni və təbii irsinin qorunması haqqında 1972-ci il Konvensiyası, Avropa regionu dövlətlərində tədris kurslarının, ali təhsil haqqında diplomların və elmi dərəcələrin tanınması, Mədəni dəyərlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər, Qeyri-maddi mədəni irsin qorunması, Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında konvensiyalar məhz tarixi və mədəni irsin müdafəsinə istiqamətlənmişdir (6).

Bu gün dünyada mədəni irsin qorunmasında YUNESKO qədər ciddi layihələrə imza atan ikinci bir təşkilat demək olar ki, yoxdur (İSESKO istisna olmaqla). Onun rəhbərləri təşkilatın hədəfə aldığı məsələlərin beynəlxalq səviyyədə, ölkə və təşkilatların hüquqi məsuliyyəti çətçivəsində həllinə çalışır

(7). Hər bir ölkə, bu və ya digər hadisə nəticəsində maddi və mənəvi dəyərə dəymiş ziyanın ödənilməsi məsələsinə gəldikdə ilk növbədə YUNESKO-ya müraciət edir.

2009-2017-ci illərdə YUNESKO-nun Baş direktoru olmuş İrina Bokova qeyd edirdi: "qəsdən və sistematik olaraq dünya mədəni irsi abidələrinin məhvi "mədəni təmizlənmə" hesab edilir. Əslində, ümumdünya əhəmiyyətli mədəni abidələrin yer üzündən silinməsi dövlətlərin və regionların mədəni identikliyinin məhvi və dünyanın mədəni müxtəlifliyinin məhvidir. Mədəni irsə qarşı yönəlmiş qəsdlərin ekstremistlər tərəfindən törədilən vandalizmin müharibə vasitəsinə çevrilməsi də yolverilməzdir. Bu gün mədəniyyətə qarşı önəlmiş sui qəsdlərin aqressiv şəkildə təbliğatı müasir müharibələrin xarakterik cəhətlərinə çevrilməkdədir" (7). Təsadüfi deyil ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və qızışdırdığı müharibə də buna misaldır.

Məlumdur ki, 30 ildən çoxdur ki, Azərbaycanın 20 faiz torpaqları erməni işğalı altında qalmışdır. Bu illərdə milyon nəfərdən çox qaçqın kütləsi və vəhşicəsinə qətlə yetirilmiş onminlərlə dinc sakin erməni aqressiyasının qurbanları olmuşlar. Hələ 1987-ci ildə Ermənistan SSR-in Qafan rayonunda Qərbi Azərbaycanlıların öz ata-baba yurdundan deportasiyası başlanmışdı. Ermənistan SSR-də yaşayan 250 mindən çox azərbaycanlı tarixi torpaqlarından zorla qovularaq hər cürə təhqirə məruz qalmışlar. Onların arasında 216 nəfər vəhşicəsinə öldürülmüş, 1154 nəfər işgəncə nəticəsində yaralanmışdır. Qaçqın vəziyyətinə düşmüş əhali Azərbaycanda sığınmağa məcbur olmuşdur. I Qarabağ müharibəsi nəticəsində isə bir milyondan çox azərbaycanlı yurd yuvalarını tərk etməyə məcbur olmuşlar. Bu müharibə nəticəsində 20 min azərbaycanlı həlak olmuş, 50 min insan əlilə çevrilmişdir. Münaqişə nətivəsində 4 minə yaxın azərbaycanlı, onların içində 67 uşaq, 265 qadın və 326 ahıl itkin düşmüşdür. Onların taleyi haqqında hələ də heç bir məlumat yoxdur. İki mindən çox əsir isə ermənilərin girovuna çevrilmişdir (8,183).

Əminamanlığın və təhlükəsizliyinin başlıca təminatçısı rolunu oynayan BMT 1993-cü ildə Qarabağda erməni işğalına dair 822, 853, 874 və 884-cü qətnamələrini verməli olmuşdur. Bu qətnamələr münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli siyasi prosesinin hüquqi bazasını müəyyən edirdi. Qətnamələrdə torpaqlarının işğalı, ərazi iddialarının həllində zor tədbiqininin yolverilməzliyi, Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin və suverenliyinin toxunulmazlığı əks olunmuş və Ermənistan tərəfindən bu ölkənin silahlı qüvvələrinin işğal olunmuş bütün ərazilərdən dərhal və sözsüz çıxarılması tələb olunmuşdur.

Təəssüf ki, üç onillik ərzində dünya ölkələri Ermənistana heç bir təzyiq vasitəsindən səmərəli istifadə edə bilməmişdir. Əvəzində isə bu illərdə erməni işğalı altında qalmış Qarabağ torpaqlarında tarixi və mədəni abidələrin 95 %-ni məhv edilmişdir. Ermənistan işğal olunmuş ərazilərdə infrastruktura, tarixi və mədəni abidələr, hətta qəbirsanlıqlara belə rəhm etməmiş, onların hamısını vandalizmin qurbanı olmuşdur.Azərbaycan tərəfi dəfələrlə təşkilata bu haqda xəbərdarlıq məktubları və müraciətləri yazmışıdır (3).

Hal hazırda məlumdur ki, 706 sayda tarixi və mədəni abidələr arasında bir ədəd belə salamat abidə qalmamışdır (9). Bu akt bəşəriyyətə qarşı hərbi cinayətdən başqa heç nə deyildir. Ermənistan 30 il ərzində Azərbaycan xalqına qarşı təkcə etnik deyil, həm də mədəni "təmizləmə" siyasəti aparıb. O həm də minilliklərlə burada yaşamış azərbaycanlıların izlərini silməyə çalışaraq buranın erməni torpağı olmasını dünyaya car çəkməyə çalışmışdır (8, 84;99;107;165). Məhz buna görə də rəsmi Bakı İrəvandan bu məqsədlə beynəlxalq məhkəmələrə müraciət etmək və kompensasiya tələb etmək fikrindədir.

Hal hazırda müstəqil şirkətlər Ermənistan tərəfindən törədilmiş, beynəlxalq məhkəmələrə təqdim olunacaq dağıntıların miqdarını hesablayırlar. Azərbaycan tərəfi belə hesab edir ki, Ermənistan Azərbaycan xalqına və dövlətinə, onun tarixinə, mədəniyyətinə və təbiətinə qarşı törətdiyi cinayətin məsuliyyətini daşımalıdır.

Ermənistan tərəfindən fərqli olaraq, Azərbaycan heç bir zaman digər xalqların tarixi və mədəni abidələrilə "müharibə" aparmamışdır, əksinə Bakıda və Azərbaycanın regionlarında onlarla məscid, məbəd, kilsə və sinaqoqlar bərpa edilərək müdafiə edilir. Bizim ölkə həmişə fərqli mədəniyyətlərə, inanclara və adətlərə həmişə tolerant olaraq qalmışdır.

Uzun illər Azərbaycanın birinci xanımı Mehriban Əliyeva YUNESKO-nun xoşməramlı səfiri olmuşdur. O, bu ada 2004-cü il avqustun 13-də Azərbaycan ədəbiyyatının, musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsində yorulmaz fəaliyyətinə, YUNESKO ideallarına sədaqətinə görə layiq görülüb (10).

Ümumiyyətlə, YUNESKO-nun xoşməramlı səfirləri təşkilatın ideallarını və missiyasını yaymaq və təbliğ etmək üçün öz səlahiyyət və statuslarından istifadə edən şəxslərdir. Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycan təkcə öz ölkəsində deyil, bütün dünyada qədim abidələrin bərpası istiqamətində çox işlər görüb. Buna görə də, YUNESKO-nun direktoru İrina Bokova "Mədəni sərvətlərin qorunması" adlı hərbi məlumat kitabınln ön sözündə - yazırdı: "Mən həm də səxavətli köməyinə görə Azərbaycan hökumətinə ayrıca təşəkkür etmək istərdim. Bütün hökumətləri silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması ilə bağlı çağırışlara qarşılıq vermək üçün öz silahlı qüvvələrinin potensialının artırılmasında bu nəşrdən istifadə etməyə tövsiyə edərdim. Bu, təkcə mədəniyyət məsələsi deyil. Bu, həm də təhlükəsizlik baxımından başlıca tələbdir" (5).

## 2. Qarabağın məhv olmuş abidələri və ikili standartlar

2017-ci ildə BMT Təhlükəsizlik Şurası tarixi bir qətnaməyə imza atmışdır. Bu qətnaməni dəstəkləyən İrina Bokova bildirmişdi: " Mədəni irsin məqsədəyönlü şəkildə məhv edilməsi hərbi cinayətdir. Bu, mədəni təmizləmə strategiyasını münaqişə tərəfləri cəmiyyəti parçalamaq üçün düşünülmüş şəkildə hazırladığı müharibə taktikasına çevirmişlər. Buna görə də mədəni irsin qorunması təkcə mədəniyyət sahəsinin məsələsi deyil, həm də insan həyatının təhlükəsizliyə ilə ayrılmaz şəkildə bağlı olan təhlükəsizliyin zəruri şərtidir"(7).

Sevincidirici haldır ki, 30 noyabr 2021-ci il tarixində YUNESKO-nun Silahlı Münaqişələr Zamanında Mədəni Əmlakın Mühafizəsi Komitəsinə seçkilərində Azərbaycan Komitənin üzvlüyünə namizədlərdən biri kimi əksə ölkələr tərəfindən dəstəklənərək2021-2025-ci illər ərzində YUNESKO-nun İcra Şurasının üzvlərindən biri ola bilmişdi(11).

Təəssüflər olsun ki, BMT-nin qəbul etdiyi qətnamələrin reallaşmasına təminat verməyi öhdələrinə götürmüş məlum təşkilatların və siyasətçilərin ikili standartlar siyasəti YUNESKO-ya da öz təsirsiz keçməmişdir. Azərbaycanın haqlı çağırşlarına baxmayaraq təşkilatın heç bir missiyası ermənilər tərəfindən vandalizmə məruz qalmış tarixi və mədəni obyektlərin araşdırılması üçün Qarabağın işğaldan azad olmuş bölgələrinə və Qərbi Azərbaycana göndərilmədi və heç bir tədbir görülmədi. YUNESKO-nun Azərbaycan xalqının təkcə Qarabağda deyil, həm də Ermənistan ərazisində yerləşən mədəniyyət abidələrinə qarşı qərəzli münasibətini nəzərə alan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatının direktoru Odri Azule YUNESKO-nun xoşməramlı səfiri kimi fəaliyyətini dayandırmasına dair etiraz məktubunu göndərməli oldu.

Qeyd etmək lazımdır ki, məktubda Mehriban Əliyeva Azərbaycanla YUNESKO arasındakı əməkdaşlığın vacibliyindən söz açaraq 2004-cü ildən bəri xoşməramlı səfir kimi fəaliyyəti dövründə təşkilatın dəyər və prinsipləri sahəsində çoxsağlı birgə layihələrin həyata keçirilməsini də vurğulamışdır. Eyni zamanda 2013-cü ildə tərəflər arasında imzalanmış Çərçivə sazişini, mədəni irsin qorunması, qızların təhsili, gender bərabərliyi və digər sahələrdə bir sıra ölkələrdə həyata keçirilən layihələrə dəstək verilmiş Azərbaycan-YUNESKO Etimad Fondunun yaradılmasının əhəmiyyətini də xatırlatmışdır (12).

Məktubda Ermənistanın 30 ilə yaxın zaman çərçivəsində Azərbaycan xalqının mədəni və tarixi irsinə qarşı apardığı siyasət və vandalimz aktları ayrıca yer almışdır. Azərbaycan Respublikasının Birinci vitse-prezzidenti Mehriban Əliyeva uzun illər işğal altında qalmış Azərbaycan ərazilərinin Vətən Müharibəsi nəticəsində azad edilməsindən sonra regionun geniş bərpa işlərininin və dirçəldilməsində fəal iştirakını da vurğulamışdır. Bu baxımdan o, vəzifəsinin xüsusi rolunu nəzərə

alaraq YUNESKO-nun xoşməramlı səfəri vəzifəsinin yerinə yetirə bilməməsini bildirmişdir, belə ki, indiki dövrdə bərpa işlərinə aktiv şəkildə cəlb olunmasını və bu istiqamətdə öz xüsusi rolunu dərk edərək YUNESKO-nu xoşməramlı səfir kimi təmsil edə bilməyəcəyini vurğulamışdır.

Mehriban xanım məktubunda YUNESKO-nun tezliklə Azərbaycanın işğaldan azad olunmuş ərazilərində də öz missiyasını yerinə yetirəcəyinə, Ermənistan tərəfindən xalqımızın mədəni və tarixi irsinə vurduğu zərərin ölçülməsində yaxından iştirak edəcəyinə ümid etdiyini də qeyd etmişdir. Müraciətdə qeyd olunmuşdur ki, Azərbaycan bundan sonra da təşkilatla yaxından əməkdaşlıq edəcək, onun fundamental prinsiplərinə sadiq qalaraq münasibətlərin inkişafına bacardığı qədər səy göstərəcəkdir.

Bu gün Azərbaycan Respublikası ilə YUNESKO arasında əməkdaşlıq davam edir. Azərbaycan təşkilatın fəaliyyəti çərçivəsində həm ölkə daxilində, həm də dünya səviyyəsində maddi və qeyri-maddi mədəni abidələrin qorunmasına kifayət qədər töhvə vermişdir.

**Nəticə**

Beləliklə, YUNESKO tarixi və mədəni irsin qorunmasına hədəflənmiş bir təşkilat kimi BMT-nin nəzdində yaradılmaqla ona qoşulan ölkələrə hər cür yardım və köməklik göstərməklə yanaşı həmin ölkələrin məsuliyyətini də tələb edir. 30 il ərzində 20 faiz torpağı işğal altında olmuş Azərbaycan üçün bu təşkilat xüsusi əhəmiyyət kəsb etmişdir. Azərbaycanda YUNESKO-nun nümayəndəliyi mövcud olmuş, çoxlu sayda birgəlayihələr reallaşmışdır. Azərbaycanın birinci vitse-prezidenti Mehriban xanım Əliyeva illərlə təşkilatın xoşməramlı səfiri vəzifəsində çalışmışdır. Ölkəmiz xarici ölkələrdə milli və mədəni abidələrin bərpasına maliyyə vəsaitləri sərf etmişdir. Eyni zamanda təşkilatın özü də xalqımızın bir-çox maddi və qeyri maddi mədəni nailiyyətlərini öz siyahısına daxil etməklə onların müdafiəsini dünya səviyyəsinə qaldırmışdır.

## ƏDƏBİYYAT:


1. О.В. Дамаскин,И.В. Холиков, Современные проблемы международного гуманитарного права// "Современное право", стр.: 104-111,11.04.2022- https://sovpravo.press/stati/sovremennye-problemy-mezhdunarodnogo-gumanitarnogo-prava/
2. Виталий Калугин, Организационно-правовые средства обеспечения реализации норм по защите культурных ценностей в период вооруженного конфликта в международном механизме имплементации международного гуманитарного права//Белорусский журнал международного права и международных отношений 2001 — № 3- Https://evolutio.info/ru/journal-menu/2001-3/2001-3-kalugin
3. Материалы Международной конференции «Конвенции ЮНЕСКО в области охраны культурного наследия и национальное законодательство государств-участников СНГ» (Минск, 26-28 апреля 2007 г.).Минск ИООО «Право и экономика» 2007, 250 с.
4. Второй протокол к Гаагской Конвенции о защите культурных ценностей в случае Вооруженного Конфликта 1954 года, Гаага, 26 марта 1999 годаhttps://www.un.org/ru/documents/decl_conv/conventions/hague_conv_2nd_prot.shtml
5. Azərbaycan-YUNESCO: İnsan Hüquqlarına Əsaslanan Tərəfdaşlıq, Bakı-2014 https://www.academia.edu/10249825/UNESCO_Azerbaijan_cooperation_on_Human_Rights
6. AzərbaycanRespublikasıiləəməkdaşlıq -unesco.az/az/pages/cooperation-unesco-republic-azerbaijan

7. Защита культурных ценностейвоенныйСправочникЗащита Культурных Ценностей – Военный Справочник -https://unesdoc.unesco.org/ark:/48223/pf0000372542
8. Məcidli S. Azərbaycanlılara qarşı törədilən sülh və insanlıq əleyhinə cinayətlər (1918-2018-ci illər), BAKI-2018, 271 səh
9. Hesabat. Ermənistanın Azərbaycanlılara məxsus mədəni və tarixi irsi mənimsəməsi, Bakı-2021, 40 shttps://aircenter.az/uploads/files/HESABAT%20AZ.pdf
10. UNESCO-nun Xoşməramlı Səfiri xanım Mehriban Əliyevanın fəaliyyəti (2004-2022)Https://unesco.az/az/pages/unesco-goodwill-ambassador-mehriban-aliyeva
11. Азербайджан избран в Комитет по защите культурных ценностей ЮНЕСКО «Interfax» — последние новости Азербайд… interfax.az/print/851903/ru 1/1 02.12.2021 09:57

(http://idp.gov.az/uploads/files/Dagliq_Qarabag_munaqishesi.)

12. Mehriban Əliyevadan qətiyyətli etiraz: UNESCO-dakı siyasi oyunlara verilən mahir cavab https://oxu.az/politics/664069

## РЕЗЮМЕ

***Севда ИБРАГИМОВА***

### *Связи Азербайджана с ЮНЕСКО вчера, сегодня, завтра*

***Ключевые слова:*** *ЮНЕСКО, Организация Объединенных Наций, историческое и культурное наследие, Гаагская конвенция*

ЮНЕСКО, действующая в рамках ООН, считает науку, культуру, образование, права детей и человека, экологию и здравоохранение важными проблемами современности. В настоящее время между Азербайджанской Республикой и ЮНЕСКО существует тесное сотрудничество. В рамках деятельности организации Азербайджан провел практическую работу в различных странах в направлении образования, экологии, защиты культурного и исторического наследия. Первая леди Азербайджана Мехрибан Алиева на протяжении многих лет является послом доброй воли ЮНЕСКО. Наша страна смогла стать одним из членов Исполнительного совета ЮНЕСКО в течение 2021-2025 годов.

Известно, что более 30 лет 20 процентов земель Азербайджана оставались под армянской оккупацией. За эти годы жертвами армянской агрессии стали более миллиона беженцев и десятки тысяч жестоко убитых мирных жителей. К сожалению, за три десятилетия мировое сообщество не смогло эффективно использовать какие-либо средства давления на Армению. За эти годы на карабахских землях, находящихся под оккупацией Армении, было уничтожено 95% памятников истории и культуры. В этом отношении для нашей страны важны тесные связи между Азербайджаном и ЮНЕСКО.

## ABSTRACT

***Sevda IBRAHIMOVA***

***Azerbaijan UNESCO Relations: Yesterday, Today, and Tomorrow***

***Keywords:*** *UNESCO, Organization of the United Nations, historical and cultural heritage, Hague Convention*

UNESCO, operating within the framework of the UN, considers science, culture, education, children's and human rights, ecology, and health to be important problems of the modern era. Currently, there is close cooperation between the Republic of Azerbaijan and UNESCO. As part of the organization's activities, Azerbaijan has conducted practical work in various countries in the direction of education, ecology, and the protection of cultural and historical heritage. For many years, the first lady of Azerbaijan, Mehriban Aliyeva, has been a UNESCO goodwill ambassador. Our country was able to become one of the members of the Executive Council of UNESCO during 2021–2025.

It is known that for more than 30 years, 20 percent of the lands of Azerbaijan remained under Armenian occupation. During these years, more than a million refugees and tens of thousands of brutally killed civilians became victims of Armenian aggression. Unfortunately, for three decades, the world community has not been able to effectively use any means of pressure on Armenia. During these years, 95% of monuments of history and culture were destroyed in Karabakh lands under the occupation of Armenia. In this regard, close ties between Azerbaijan and UNESCO are important for our country.